

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 163 (23.074)

*31 avqust 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 30-da ölkəmizə səfərə gələn Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri Mamuka Baxtadzeni qarşılayıb.

Prezident İlham Əliyev və Baş nazir Mamuka Baxtadze rəsmi foto çəkdiriblər.

Azərbaycanın Prezidenti və Gürcüstanın Baş naziri görüşdə çıxış ediblər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri Mamuka Baxtadze işçi nahar ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı iqtisadi, humanitar sahələrdə əməkdaşlıq barədə danışılıb, çinli turistlərin Azərbaycana böyük maraq göstərdikləri qeyd olunub.



## “3 sentyabr 1991-ci il: Azərbaycanın Naxçıvandan başlanan qurtuluş tarixi” mövzusunda konfrans

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında keçirilən “3 sentyabr 1991-ci il: Azərbaycanın Naxçıvandan başlanan qurtuluş tarixi” adlı konfransı giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açıb.***

Tədbirdə Zeyvə kənd ərazi ilk partiya təşkilatının sədri Məhərrəm Rəhimov “Naxçıvanda Heydər Əliyev ideyalarının təntənəsi”, rayon Təhsil Şöbəsi ərazi ilk partiya təşkilatının sədri Ədalət Əhmədov “Naxçıvan təhsili sürətli inkişaf yolundadır”, Statistika İdarəsinin rəisi Ramiz Rəsulov “Şərurun bugünkü inkişafı Heydər Əliyev ideyalarına söykənir”, Kürçülü kənd tam orta məktəbinin direktoru Zülfiyyə Məmmədova “Naxçıvanın xarici-iqtisadi əlaqələrinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur” mövzularında məruzələri dinlənilib.

Qeyd olunub ki, görkəmli dövlət xadimi xalqının ən ağır günlərində onunla bir olmaq istəyi ilə 1990-cı il iyul ayının 22-də doğma yurdu Naxçıvana gəldi. Həmin vaxt muxtar respublika son dərəcə ağır şəraitdə yaşayırdı. Bir tərəfdən, iqtisadiyyat iflic olmuş, əhalinin maddi durumu dözülməz həddə çatmışdı. Digər tərəfdən, bədnam ermənilərin aramsız hücumları və ozamankı Azərbaycan rəhbərliyinin hər tərəfdən



yolu bağlanmış Naxçıvana ögey münasibəti vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Belə bir vaxtda ulu öndərin Naxçıvana qayıdışı xalqın əsl nicatına çevrildi, xalq onun timsalında böyük xilaskarını tapdı. Təkcə Naxçıvanın yox, bütövlükdə, Azərbaycanın bu günü və gələcəyi üçün taleyüklü məsələlərin həllini prioritet vəzifəyə çevirən dahi şəxsiyyət 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Naxçıvanda siyasi fəaliyyət göstərdiyi üç il ərzində həm də Azərbaycanın müstəqil, demokratik, dünyəvi dövlət kimi güclənməsi, inkişaf etməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən qərarlar qəbul etdi. Beləliklə, 1990-1993-cü illər tarixə Heydər Əliyev siyasi fəaliyyətinin Naxçıvan dövrü kimi daxil oldu.

Vurğulanıb ki, Ali Məclisin ulu öndərin sədrliyi ilə keçirilən iclasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi qəbul olundu, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi. Bundan əlavə, Naxçıvan SSRİ-nin saxlanması barədə keçirilən referendumdan imtina etdi, muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarıldı, ərazidə Kommunist Partiyası yerli orqanlarının fəaliyyəti dayandırıldı. Bundan başqa, ilk milli sərhəd dəstələri yaradıldı, keçmiş sovet ordusu onlara məxsus silah-sursatın Naxçıvanda saxlanması şərti ilə muxtar respublika ərazisini tərk etdi. Həmçinin milli şüurun dirçəlməsi istiqamətində ən zəruri addımlar atıldı, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edildi.

Diqqətə çatdırılıb ki, dövlət müstəqilliyinin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşan iqtisadi model də formalaşırdı. Belə ki, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradılırdı. Həmin vaxt Araz çayı üzərində “Ümid” körpüsü tikilib istifadəyə verildi. Sədərək, Culfa, Nehrəm və Şahtaxtı gömrük-keçid məntəqələri fəaliyyətə başladı, Türkiyədən və İrandan muxtar respublikaya yüksəkgərginlikli elektrik xətləri çəkildi.

Ümumiyyətlə, 1990-1993-cü illərdə Naxçıvanın siyasi, mədəni, mənəvi və iqtisadi mühitindən ümummilli liderimizin quruculuq fəaliyyəti qırmızı xətlə keçir.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə xalqın fəal təşkilatlanmasının mühüm əlamətlərindən biri də 1992-ci il noyabr ayının 21-də ümummilli lider ətrafında birliyin mühüm forması olan Yeni Azərbaycan Partiyasının yaradılması oldu. Bu partiya qısa vaxtda dövrün siyasi hərəkatında fəal nümunə və təsir gücünə malik olduğunu sübut etdi.

Bildirilib ki, xalq ulu öndəri Naxçıvandan Bakıya dəvət etdikdən sonra qısa zamanda Azərbaycan demokratik prinsiplərə sadiq bir dövlət kimi sürətlə inkişaf etməyə başladı və on il ərzində dünya birliyinə inteqrasiya yolunda böyük nailiyyətlər qazandı. Bu gün dahi şəxsiyyətin siyasi irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin milli maraqlarına xidmət edən daxili və xarici siyasəti nəticəsində respublikamız bütün sahələrdə dinamik inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır.

Bu gün böyük qürur hissi keçiririk ki, ulu öndərin Naxçıvanın dünəni, bu günü və daha xoşbəxt gələcəyi naminə müəyyənləşdirdiyi strategiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilir. 1995-ci ildən başlanan ardıcıl və məqsədyönlü siyasət nəticəsində muxtar respublikanın sosial-iqtisadi sahədə qazandığı uğurlar artıq xarici bazarlardan asılılığı minimuma endirib. İşsizliyin aradan qaldırılması, məşğulluğun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində hər il minlərlə yeni iş yerləri yaradılır, ərzaq və qeyri-ərzaq məhsullarına, inşaat materiallarına olan tələbat yerli istehsal hesabına təmin edilir. Ümumtəhsil məktəblərinin şəbəkəsi yeni istifadəyə verilən obyektlər hesabına ildən-ilə genişlənir. Sevindirici nəticələrdən biri də budur ki, əhalinin artımında və məskunlaşmasında hər il yüksək rəqəmlər qeydə alınır. Bütün bunlar əsası 3 sentyabr 1991-ci ildə görkəmli dövlət xadimi tərəfindən Naxçıvanda qoyulan uzaqgörən siyasətin nəticəsidir.

**Elman MƏMMƏDOV**

## Naxçıvanda məktəbli yarmarkasına start verilib





*Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi məktəbli yarmarkası təşkil olunub.*

Dünən bu münasibətlə keçirilən tədbirdə çıxış edən təhsil naziri Rəhman Məmmədov deyib ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunub, 200-dən çox məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Təhsil sistemində aparılan islahatlar təkcə məktəb tikintisi ilə yekunlaşmayıb, təhsil müəssisələrinin maddi-texniki bazaları da gücləndirilib, məktəbləri ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunub.

Qeyd edilib ki, muxtar respublikada şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə təminatı da diqqətdə saxlanılır. Hər il məktəbli yarmarkalarının təşkil edilməsi bu istiqamətdə atılan mühüm addımdır. Bu, yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə daha asan şəkildə təmin edilmələrində mühüm rol oynayır. Yarmarkada məktəbli geyimləri ilə yanaşı, lazım olan bütün dərs ləvazimatlarının, ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Buradan lüğət, dünya uşaq ədəbiyyatı nümunələri, bədii və elmi ədəbiyyatlar da əldə etmək mümkündür.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxışında bildirib ki, bu gün muxtar respublikada məktəbli geyimləri, köynək, ayaqqabı istehsal edən yüngül sənaye müəssisələri fəaliyyət göstərir. Üçü istehsal müəssisəsi olmaqla, 20 sahibkarlıq subyektinin iştirak etdiyi budəfəki yarmarkada da məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabıları və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur. Satılan bütün məhsulların qiymətinə İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi nəzarət ediləcək.

Sonra yarmarkaya gələnlər satışa çıxarılan məhsullarla tanış olublar. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb.

Qeyd edək ki, məktəbli yarmarkası muxtar respublikanın bütün bölgələrində təşkil olunur və sentyabrın 16-dək davam edəcək.

✍ **Nail ƏSGƏROV**

***“Naxçıvan” Universitetində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.***

## Ali təhsil müəssisəsində növbəti payız-qış mövsümünə ciddi hazırlıq işləri gedir

Tədbiri universitetin rektoru, professor İsmayıl Əliyev açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə ali və orta ixtisas təhsili müəssisələrinin tədris korpuslarının, idman zallarının, sosial xidmət mərkəzləri və yataqxanalarının mövsümə hazırlığı barədə verilən tapşırıqları diqqətə çatdırıb.



Bildirilib ki, həmin tapşırıqların vaxtında və yüksək keyfiyyətlə icrasına “Naxçıvan” Universitetində də xüsusi diqqət yetirilir. Bu məqsədlə universitet şəhərciyində su, qaz, işıq sistemləri yoxlanılıb, mövcud problemlərin vaxtında aradan qaldırılması üçün lazımi tədbirlər görülür.

Yığıncaqda çıxış edən universitet yataqxanasının müdiri Müseyib Babayev ali təhsil ocağında payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlərdən danışıb, soyuq aylarda tədrisin keyfiyyətinə təsir edə biləcək halların vaxtında aşkarlanıb aradan qaldırılmasının əhəmiyyətini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədən sonra artıq “Naxçıvan” Universitetində mövsümə hazırlıq işlərinə start verildiyini önə çəkən Təsərrüfat şöbəsinin müdiri Şahin Babayev istilik və elektrik sistemlərinin, su borularının sazlığının təmin olunması istiqamətində görülən işlərdən danışıb.

**Nuray ƏSGƏROVA**



Doğma torpaq, yaşı minilliklərlə ölçülən qədim tarix, gözəl mənzərələr məkanı Naxçıvan... Tanrı bu diyarın hər qarışına sığal çəkib, insan əli onu başdan-başa abadlaşdırıb, müasirləşdirib. Məhz buna görədir ki, muxtar respublika özünün yüksəlişi ilə müstəqil ölkəmizin inkişaf tarixində ən parlaq yeri tutur. Ötən illərlə müqayisədə bölgələrimizin inkişafı fonunda bu fərqi Babək rayonunun timsalında da görə bilərik. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" 2018-ci il 16 fevral tarixli Sərəncamında deyildiyi kimi: *"Rayonda həyata keçirilən infrastruktur tədbirləri, ətraf mühitin qorunması, əhali məşğulluğunun təmin olunması demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, rayon əhalisinin sayı 1978-ci illə müqayisədə 2018-ci ildə iki dəfəyə yaxın artaraq 75 min nəfər olmuşdur".*

*Babək rayonu – 40*

# Müasir görünüşü ilə diqqəti cəlb edən Nehrəm kəndi yeni inkişaf dövrünü yaşayır

Babək rayonunun inkişafdan pay alan, müasirləşən kəndlərindən biri də Nehrəmdir. Muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən olan Nehrəm özünün müasirliyi ilə ilk baxışdan insanın diqqətini cəlb edir. Aydın görünür ki, dünəni və bu günü arasında ölçüyəgəlməz fərq yaranan Nehrəm dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Burada yeni iş yerləri açılıb, tarixi-mədəni abidələr bərpa edilib, yeni fərdi evlər tikilib.

Tədqiqatçıların "Naxçıvan", "Nuhçıxan", "Nehrəm", "Nəhcir" kimi adları bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərlə əlaqələndirmələri bu kəndin də tarixinin qədim dövrlərə gedib çıxdığını sübut edir. Yaşayış məntəqəsinin sakinləri hər zaman tarixi köklərə, milli dəyərlərə, dövlətçiliyə bağlılıqları, vətənpərvərlikləri ilə seçiliblər. Hələ ötən əsrin əvvəllərində kənd sakinləri daşnak Andronikin quldur dəstələrinə qarşı böyük qəhrəmanlıqla vuruşub inamla müdafiə olunublar. 1941-1945-ci illər müharibəsində şücaət göstərən nehrəmlilərin də sayı az olmayıb. Həmin dövrdə müharibəyə gedənlərdən 244 sakin geri qayıtmayıb. 1988-ci ildə mənfur ermənilərin əsassız torpaq iddiaları ucbatından başlanan məlum hadisələr dövründə isə bu kəndin 10 gənci ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Kəndin mərkəzində İkinci Dünya müharibəsində həlak olanların ruhuna ehtiram olaraq abidə ucaldılıb, burada şəhid oğulların büstü qoyulub. Ümummilli liderimiz Heydər Əliyev 1999-cu il oktyabrın 13-də Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışında söylədiyi nitqdə Nehrəm və nehrəmlilər barədə belə deyib: ***"Bu kənd qeyrətli insanlar kəndidir. Mən o kəndi həmişə sevmişəm və xatirimdədir. Orada qəhrəman insanlar yaşayıblar. Bu kəndin xüsusi bir mühiti var".***

Ötən əsrin 90-cı illəri də Nehrəm kəndinin tarixindən qızıl xətlə keçir. Ulu öndərimiz muxtar respublikanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün üzərinə götürdüyü xilaskarlıq missiyasını yerinə yetirməyə başlayarkən nehrəmlilər də görkəmli dövlət xadiminə dəstək olub, onun deputatlığa namizədliyi də elə bu kənddən irəli sürülüb. Həmin illərdə üçrəngli bayrağımız ulu öndərin təşəbbüsü ilə Naxçıvanda yenidən dalğalandırılıb. Ötən il avqust ayının 5-də kənddə istifadəyə verilən Heydər Parkının mərkəzində bu gün əzəmətlə dalğalanan bayraq da o illəri xatırladır. Bu gün nehrəmlilərin ən çox üz tutduqları bir məkana çevrilən həmin parkın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Bu gün açılışı olan Heydər Parkı kənddə həyata keçirilən quruculuq tədbirlərinin davamıdır. Müasir sosial obyektlər və yaradılan infrastruktur imkan verir ki, Nehrəm kəndi daha da inkişaf etsin. Bütün bunlar isə insanlarda dövlətə inam yaradır, onların rahat yaşayışına xidmət edir. Heydər Parkında istirahət edənlər də 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Nehrəm kənd sakinləri ilə görüşlərini xatırlayacaq, o çətin və tarixi günləri bir daha yada salacaqlar".***



Məlumat üçün bildirək ki, parkın ümumi sahəsi 8 min 515 kvadratmetrdir. Park üçün giriş qapısı tikilib, ərazi dekorativ metal çəpərlə hasarlanıb, müasir işıqlandırma sistemi qurulub, yaşıllıqlar salınıb və oturacaqlar qoyulub.





Heydər Əliyev quruculuq xəttinin uğurla davam etdirilməsi nəticəsində istifadəyə verilən sosial obyektlər, yaradılan müasir yol infrastrukturu, kənd təsərrüfatının inkişafı sahəsində görülən işlər, yeni iş yerlərinin açılması kənddə məskunlaşmanı daha da artırıb, əhalinin rifahı xeyli yaxşılaşıb. Burada elmin, təhsilin inkişafı ilə yanaşı, dini-mənəvi dəyərlərimizə də hər zaman böyük hörmətlə yanaşılıb. Tarixi-mədəni irsimizin yaşadıldığı kənddə dövlətimiz tərəfindən min illərin tarixi abidələri bərpa edilərək gələcək nəsillərə çatdırılır. Kənddə bu gün dindarlar üçün lazımi şərait yaradılıb. Bu sahədə görülən işlərin davamı olaraq nehrəmlilərin ən çox üz tutduqları ünvanlardan olan XVIII əsrə aid memarlıq abidəsi İmamzadə bərpa edilərək bu il aprelin 14-də istifadəyə verilib.

Nehrəm İmamzadəsi İslam müqəddəsləri ilə əlaqədar yaradılmış memarlıq nümunələrindəndir. Burada yeddinci imam Musa Kazımın oğlu Seyid Əqil dəfn olunub. Aşağı hissəsi kvadrat şəklində olan abidənin tavanı tağvarı günbəzlə örtülüb. Abidə türbə, məscid, təkyə və yardımçı binalardan ibarətdir. Bərpa işləri aparılarkən türk-islam memarlıq elementlərindən istifadə olunub, İmamzadənin tarixi görkəmi qorunub saxlanılıb.

Muxtar respublikada milli dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq kənddə 2016-cı il noyabrın 11-də istifadəyə verilən yeni məscid müasir Şərq memarlıq incisi kimi diqqəti cəlb edir. Məscid öz möhtəşəmliyi ilə görənləri heyrətə salır. Sahəsi 830 kvadratmetr olan ibadət yeri zal və minarədən ibarətdir. Məscidin daxili milli və dini ornamentlərlə, naxışlarla bəzədilib, divarlara "Qurani-Kərim"dən ayələr həkk olunub. Burada 570 nəfərin eyni vaxtda ibadət edə bilməsi üçün lazımı şərait yaradılıb. Məsciddə həmsöhbət olduğumuz Babək Rayon Dini İcmasının sədri Şahin İsmayılov bildirdi ki, hər məhəllənin öz məscidi olmaqla, ümumilikdə, Nehrəmdə 7 məscid vardır. Ziyarətgahlarımıza, ibadət yerlərinə dövlətimizin göstərdiyi diqqət və qayğı hər bir sakin tərəfindən rəğbətlə qarşılanır. Onun sözlərinə görə, kənddə tikilən müasir mərasim evlərində yaradılan şərait insanların rahatlığına xidmət edir.

Nehrəm tarixən həm də ziyalılar yurdu kimi tanınır. Bu kənddə maarif işığı yandıranlardan biri də böyük mütəfəkkir Cəlil Məmmədquluzadə olub. Kənddə 1885-ci ildə açılan ilk dünyəvi məktəbdə böyük yazıçı və dramaturq 1890-cı ildən 1897-ci ilə qədər müəllim və nəzarətçi işləyib. Bəzi mənbələrdə qeyd olunur ki, o, Nehrəm məktəbində fəaliyyətə başladığı vaxt burada 26 şagird təhsil alırdı. Cəlil Məmmədquluzadə qısa müddətdə şagirdlərinin sayını 40 nəfərə çatdırıb. Mirzə Cəlilin xalqımız üçün ən böyük xidmətlərindən biri də o olub ki, qızları da təhsilə cəlb edə bilib. Böyük çətinliklər bahasına 1893-cü ildə 8 nəfər qıza, o cümlədən bacısı Səkinə Məmmədquliyevaya Nehrəm məktəbində ayrıca sinif yaradaraq dərs deyib. Ədəbiyyatımızın milli sərvətinə çevrilən əsərlərinin bəzilərini burada qələmə alıb. Azərbaycanda ilk muzeyin yaradıcısı da Mirzə Cəlildir və bu muzeyi yazıçı Nehrəm məktəbində çalışarkən yaradıb. Bu barədə akademik İsa Həbibbəyli yazır: "Cəlil Məmmədquluzadə, Azərbaycanda birinci dəfə olaraq 1896-cı ildə Nehrəm məktəbində tarix muzeyi yaratmış, bu muzeydə Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair materialların toplanmasına nail olmuşdur".

Azərbaycan ədəbiyyatının korifey sənətkarlarından olan Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyi bu gün nehrəmlilərin qürur ünvanıdır. Kənd adamları qürur hissi keçirirlər ki, yazıçı-dramaturq, ictimai xadim, ustad Mirzə Cəlil Nehrəmdə ilk məktəbin yaradıcılarındandır. Bu gün həmin məktəbin yerində fəaliyyət göstərən görkəmli yazıçının Xatirə Muzeyində böyük yazıçı-publisistin xatirə şəkli, ədibin kitabları və müxtəlif eksponatlar saxlanılır. Görkəmli dramaturqun qızı Münəvvər xanım da uzun illər burada müəllimlik edib, maarifçiliklə məşğul olub.

Bu kənddə doğulan, ilk təhsilini burada alan, bu gün səsi respublikamızın hüdudlarını aşan 50-dən çox alimin vətəni kimi tanınan Nehrəmdə 3 tam orta məktəbdə uşaqlara elmlərin ilkin sirləri öyrədilir. Elektron lövhələr, internetə qoşulan kompüterlər, zəngin fənn kabinələri yaradılan məktəblərdə təhsilin yüksək səviyyədə qurulması üçün hərtərəfli şərait var. Kənddə fəaliyyət göstərən uşaq musiqi məktəbi də Azərbaycan musiqi mədəniyyətinə istedadlı yetirmələr bəxş edir. Azərbaycan Respublikasının Xalq artisti Samir Cəfərov, muğam müsabiqəsinin laureatı Sərxan Bünyadzadə də bu məktəbin yetirmələri olublar.

Nehrəm kəndində insanların sağlamlığı da diqqət mərkəzində saxlanılır. Son illərdə yenidən qurulan kənd xəstəxanasının ərazisi 2400 kvadratmetrdir. İkimərtəbəli 20 çarpayılıq xəstəxana 3 korpusdan ibarətdir. Ən müasir tibbi avadanlıqlarla təchiz olunan tibb müəssisəsi təkcə nehrəmlilərin deyil, ətraf kəndlərin sakinlərinin də sağlamlığının keşiyində dayanır.

Muxtar respublikada nehrəmliləri torpağa bağlı insanlar kimi tanıyırlar. Onlar hələ sovet dönəmində zəhmətkeş olduqlarını sübut ediblər, torpaqdan heç vaxt üz çevirməyib, güzəranlarını bu qiymətli sərvət hesabına qurublar. Tarixən Nehrəmdə əsas təsərrüfat sahələrindən sayılan üzümçülük, bostançılıq, taxılçılıq, heyvandarlıq bu gün də inkişaf etdirilir. Kəndin ərazisinin çox hissəsi taxıl zəmiləri ilə əhatə olunub. Burada diqqət göstərilən təsərrüfat sahələrindən biri də üzümçülükdür. Nehrəm üzümü vaxtilə sərgilərdə mükafatlara layiq görülüb. Bu gün Nehrəm üzümünün şöhrəti özünə qaytarılmağa çalışılır. 2015-ci ildə kənddə yaradılan muxtar respublikanın ən böyük üzümçülük təsərrüfatında 20-yə yaxın üzüm sortu yetişdirilir.

***Yaxşı yaşamağın sirrini çox çalışmaqda, yeniliklərə can atmaqda görən nehrəmlilər milli dəyərlərimizə bağlılıq, dinimizə ehtiram, müstəqil dövlətimizin inkişafı naminə çalışmaqla dövlətçiliyə sədaqətlə xidmət edirlər. Bu keçmişdə də belə olub, bu gün də belədir, sabah da belə olacaq...***

**Güntac ŞAHMƏMMƏDLİ**

## Bərəkət təknəsi – "Dostluq" un dəyirmanı



***Əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında mühüm yer tutan taxılçılıq Naxçıvanda qədim əkinçilik sahələrindəndir. Bu gün "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazalarında aqrotexniki xidmət səviyyəsinin yüksəldilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin və lizinq yolu ilə müasir kənd təsərrüfatı texnikalarının verilməsi, meliorasiya-irriqasiya tədbirlərinin aparılması taxılçılığa marağı daha da yüksəldib.***

Hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar buğda sahəsi üçün 100, arpa əkini sahəsi üçün isə 50 manat ödənilir, mineral gübrələr 70 faiz güzəştlə satılır. Bundan əlavə, 2015-ci ildən başlayaraq alınan kənd təsərrüfatı texnikalarına ümumi dəyərin 40 faizi həcmində güzəşt tətbiq olunub ki, bu da torpaq mülkiyyətçilərinə yaradılmış şəraitdən layiqincə istifadə etməyə imkan verir.

Eyni zamanda bu gün muxtar respublikada taxıl ehtiyatı anbarlarının yaradılması, yeni un dəyirmanlarının istifadəyə verilməsi torpaq mülkiyyətçilərinin taxıl istehsalına marağını daha da artırıb. Belə un dəyirmanlarından biri də Şərur şəhərində yerləşən "Aqrotexservis" Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "Dostluq" un dəyirmanıdır.

Dəyirmanın təcrübəli işçilərindən İlyas Nağıyev bizimlə söhbət zamanı dedi ki, muxtar respublikamızda əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, atılan addımlar hamımızı sevindirir. Sahibkarlıq fəaliyyətinə belə geniş meydan verilməsi də bu tədbirlərin bir istiqamətidir. Öyrəndik ki, sahibkar Aqil Məmmədov 2000-ci ildə verilən güzəştli kredit dəstəyi hesabına öz işini qurub. İki-üç nəfərlə fəaliyyətə başlayan müəssisədə hazırda 10-a yaxın işçi çalışır. Burada işçilərə normal iş şəraiti yaradılıb, xüsusi geyim formaları verilib və servis xidməti ilə təmin olunublar. Müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsul istehsal etmək məqsədilə Almaniyanın bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Gün ərzində 17 ton məhsul istehsal etmək gücündə olan dəyirman tək şərurluların deyil, qonşu Sədərək və Kəngərli rayonları sakinlərinin də una olan tələbatının ödənilməsində böyük rol oynayır.

Dəyirmanda olarkən torpaq mülkiyyətçisi Müzəffər Kərimovla söhbət etmək imkanı əldə etdik. O, burada üyüdülən unun keyfiyyətindən ağızdolusu danışdı, müəssisənin fəaliyyətindən, xidmətin səviyyəsindən razılıq etdi.

Müəssisə ilə tanışlıqdan gəldiyimiz qənaət bu oldu ki, bu gün özəl sektor muxtar respublika iqtisadiyyatında xüsusi yerə malikdir. Təbii ki, bu sektorun inkişafında yerli məhsul istehsalı mühüm rol oynayır. Dövlət tərəfindən sahibkarlığın inkişafına verilən dəstək, eyni zamanda həyata keçirilən iqtisadi islahatlar sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan subyektlərdən biri kimi fəaliyyətinə möhkəm baza yaradır və bundan sonra da yaradacaqdır.

**Gülcamal TAHİROVA**

# Dövlət qayğısı yeni uğurlara yol açıb

## *Ordubad rabitəçiləri yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər*

Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sisteminin istifadəyə verilməsi münasibətilə keçirilən açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Ordubad rayonunda istifadəyə verilən yeni nəsil telefon stansiyaları dünya səviyyəli şirkət olan “Huawei” şirkətinin ən müasir avadanlıqları hesabına qurulmuşdur. Bu da ölkəmizin inkişafının göstəricisidir. Bu inkişafa isə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Çünki ölkəmizdə iqtisadi inkişaf, sabitlik və dövlətin sosialyönümlü siyasəti olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı”.***

Bu inkişafı muxtar respublikamızın bütün bölgələrində və müxtəlif sahələrdə görmək olar. Elə strateji sahə sayılan rabitə sistemini götürək. Qeyd olunmalıdır ki, hazırda muxtar respublikanın əsas və alternativ magistral telekommunikasiya xətlərinin 1600 kilometri fiber-optik xətlərdir. Fiber-optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verib. Qlobal internet sisteminə dördtərəfli çıxışın, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilməsi əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsini xeyli yüksəldib. Bu istiqamətdə görülən işlər sırasında 2010-cu ildən muxtar respublika ərazisində mövcud telefon sisteminin rekonstruksiyasına başlanılmasını da xüsusi qeyd etmək lazımdır. Bu günə qədər həmin layihənin 4 mərhələsi başa çatdırılıb. Bu sahədə görülən işlərin davamı kimi, Ordubad rayonu ərazisində mövcud avtomat telefon stansiyalarının rekonstruksiyası bölgə sakinləri tərəfindən yüksək dəyərləndirilib. Yeni Rabitə Evi və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyası qurulub, 10 qovşaq yaradılıb. Həmçinin rayonda 4-cü nəsil “Naxtel” mobil operatorunun bütün yaşayış məntəqələrini əhatə edən 16 baza stansiyası mövcuddur.



Əsas və alternativ fiber-optik kabel xətləri üzərində tam kəsintisiz telekommunikasiya əlaqələrinin təmin edilməsi üçün Şərur-Naxçıvan və Naxçıvan-Babək-Culfa-Dəstə-Ordubad məntəqələri arasında rəqəmsal transmissiya avadanlıqları qurulub. Yeni sistem abunəçilərə telefon, videotelefon, IP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri göstərilməsinə imkan verib.

Bu günlərdə rabitəçilərin iş şəraiti ilə tanış olmaq üçün həmin ünvana üz tutduq. Onların abunəçilərə göstərdikləri müxtəlif rabitə xidmətlərini müşahidə etdik. Rayon Rabitə İdarəsinin rəisi Şahmar Məmmədovla həmsöhbət olduq. O bildirdi ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Ordubad Rayon Rabitə İdarəsi və “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad rayon filialı üçün lazımi iş şəraiti yaradılıb. Rabitə Evində 16 iş otağı, server, “Naxtel” müştəri xidmətləri bölməsi, xidmət zalı, növbətçi otağı, bağlamalar və qəzet-jurnallar üçün 2 otaq, arxiv, 56 yerlik zal, 1792 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyası, bufet və qazanxana yerləşir. “Naxtel” müştəri xidmətləri bölməsində nömrələrin satışı və qeydiyyatı həyata keçirilir, eyni zamanda sakinlərin mobil rabitə ilə bağlı müraciətləri qəbul olunur.





Hazırda rayon üzrə 35 avtomat telefon stansiyası vasitəsilə 8 min 261 abonentə rabitə xidməti göstərilir. Rayonda Mərkəzi Poçt və 25 kənd poçt məntəqəsi mövcuddur. Bütün poçt məntəqələri kompüterləşdirilib və POS-terminallar quraşdırılıb. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal, üzvlük və sığorta haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kreditlərin ödənişləri də aparılır. Burada pensiya və sosial yardımların paylanması təşkil olunub. Bundan başqa, poçt məntəqələrində itmiş əşyaların sahibinə çatdırılması, elektron imzanın sertifikat xidməti və “Naxtel” müştəri xidmətləri də əhalinin istifadəsindədir.

Yeni ünvanda abunəçilərlə də görüşdük. Rayonun Behrud kənd sakini, bu yaşayış məntəqəsində müəllim işləyən Novruz Tağıyev bildirdi ki, bu gün Naxçıvan rabitəsi böyük inkişaf yolu keçib. Qısa zaman kəsiyində belə böyük inkişafa nail olmaq heç də kiçik məsələ deyil və çoxlarına inanılmaz görünür. Maraqlı cəhət ondan ibarətdir ki, muxtar respublikamızda, o cümlədən Ordubad rayonunda müasir rabitə sisteminin qurulmasına ucqar dağ və sərhəd yaşayış məntəqələrindən başlanılıb. Bu, həmin ünvanlarda yaşayan və ümumilikdə, muxtar respublika sakinlərinə göstərilən yüksək qayğının ifadəsidir.

Rayonun Azadkənd sakini İsgəndər Kazımov da bölgədə rabitə sisteminin bugünkü səviyyəsindən razılıqla danışdı. Bildirdi ki, bu gün ölkəmizin rabitə sistemində tətbiq olunan yeniliklər tezliklə muxtar respublikamıza da ayaq açır. Bu da sakinlər tərəfindən yüksək dəyərləndirilir. Çünki indiki sistem vasitəsilə əhaliyə müxtəlif və keyfiyyətli rabitə xidmətləri göstərilir. Belə şəraiti yaratmaq isə əmin-amanlıq, insanlara qayğı olan yerdə mümkündür.

Son olaraq onu da deyək ki, Ordubad rayonunda həyata keçirilən bu tədbirin nəticələrini hər bir sakin öz gündəlik həyatında hiss edir. Yeni sistem onlara rahatlıq, müasirlik gətirib. Təbii ki, bütün bunlar rayon rabitəçilərinin qarşısında yeni vəzifələr qoyub. Açılış mərasimində Ali Məclis Sədrinin dediyi kimi: ***“Ordubad rayonunun rabitəçiləri qurulanları qorumalı, onlardan uzun müddət və səmərəli istifadə etməli, əhaliyə nümunəvi xidmət göstərməlidirlər”.***

Ordubad rabitəçiləri bu vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər.

**Muxtar MƏMMƏDOV**

# İdman zamanla deyil, aparılan uğurlu siyasət, yaradılan infrastruktur, görülən işlərlə inkişaf edir



***Ölkəmizdə bədən tərbiyəsi və idman siyasəti ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması, 1999-cu ildə “Dövlət gənclər siyasəti haqqında” Fərmanın imzalanması, 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, müxtəlif illərdə imzalanmış “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” fərmanlar, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında” Sərəncam ölkəmizin işıqlı gələcəyi naminə gənclərə böyük ümidlər bəsləndiyini bir daha sübuta yetirib.***

Yaşadığımız əsrin ilk illərində respublikamızda aparılan geniş miqyaslı islahatların daha da dərinləşdirilməsi cəmiyyətimizin yüksək sosial-iqtisadi inkişaf pilləsinə yüksəlməsinə şərait yaratdı. Bu prosesdə gənclərin də inkişafı təmin edildi. Sirr deyil ki, Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyasının əsas fundamental istiqamətlərindən biri ölkə rəhbərinin gənclərə göstərdiyi diqqət, onların cəmiyyətdə özlərinə yer tutması üçün yaradılan şəraitdir. Azərbaycan gəncləri də beynəlxaq arenalarda istər siyasi baxımdan, istərsə də idman sahəsində qazandıqları uğurlarla onlara göstərilən qayğıya əməli işləri ilə cavab verdiklərini dəfələrlə sübut ediblər.

Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörənlik və qətiyyətlə həyata keçirdiyi idman siyasətinin güclənməsi hər bir Azərbaycan gəncinin layiqli vətəndaş kimi böyüməsinə imkan verir. Atılan addımlar və idman sahəsində ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, ölkəmiz gənclərin gələcəyinin yaxşılaşdırılması və onların hərtərəfli qayğı ilə əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Son illər bu istiqamətdə görülən işlər belə deməyə əsas verir. Gənclərin idmanın müxtəlif sahələrinə cəlbi üçün müəyyən addımlar atılması, yeni idman qurğularının quraşdırılması, idman komplekslərinin tikilməsi, yeni futbol meydançalarının yeniyetmə və gənclərin ixtiyarına verilməsi də məhz göstərilən dövlət qayğısının ifadəsidir. Cəmi bir neçə il ərzində uşaq və yeniyetmə idmanı, demək olar, yenidən təşkil edilərək kütləviləşdirilib, onların arasında yarışların keçirilməsi ənənəyə çevrilib.

Son 20 ildə muxtar respublikada 2 olimpiya-idman kompleksinin, 2 üzgüçülük, 1 şahmat mərkəzinin, 6 Uşaq-gənclər şahmat, 9 Uşaq-gənclər idman məktəbinin, Stend və Sportinq Atıcılıq Mərkəzinin, 1 peyntbol meydançasının istifadəyə verilməsi, məktəblərdə müasir idman zallarının yaradılması da buna geniş imkanlar açıb. İdman növlərinin gənclər arasında kütləvi hal alması üçün boks, güləş, karate-do, kikboksinq, şahmat, futbol, voleybol, basketbol, yüngül atletika, paralimpiya, hava və ekstremal, atıcılıq federasiyaları fəaliyyətə başlayıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərin cəmiyyət həyatında mühüm rol oynadığını bildirərək deyib: ***“Hər bir ölkənin gələcəyi cəmiyyətin ictimai-siyasi həyatında aparıcı rol oynayan gəncliyin əlindədir. Gənc nəslin sağlam ruhda böyüməsi, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması çox vacibdir”.***



Təsadüfi deyil ki, hazırda muxtar respublikada gənclərin idman sahəsinə axını özünü daha qabarıq şəkildə büruzə verməkdədir. Blokada vəziyyətində yaşamasına baxmayaraq, muxtar respublikada bu sahənin inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsi istiqamətində lazımi addımlar atılır. İdmançılarımızın uğurlarının artması da idmançılara, idmanın inkişafına, idman ideyalarının təbliğinə göstərilən diqqət və qayğının nəticəsidir.

İdmanın inkişafı və Naxçıvanda bədən tərbiyəsinin həyat tərzinə çevrilməsi həm də yarış təşkilatçılığından asılıdır. Bu gün muxtar respublikada beynəlxalq idman yarışlarının təşkilatçılığı Naxçıvanın təbliğində, diyarımızın turizm potensialının inkişafında əhəmiyyətli təsir vasitəsidir. Yaradılan müasir idman infrastrukturu Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açıb. 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, müxtəlif vaxtlarda sərbəst və yunan-Roma güləşi üzrə “Naxçıvan kuboku” uğrunda beynəlxalq turnirlər, beynəlxalq şahmat festivalları, üzgüçülük üzrə Azərbaycan çempionatı, veteranlar arasında ağırlıqqaldırma üzrə dünya kuboku, kikboksinq üzrə beynəlxalq peşəkar turnir və futbol üzrə “Heydər Əliyev kuboku” turnirinin Naxçıvanda keçirilməsi bu qədim diyarda idmanın həyat tərzinə çevrilməsinin ifadəsidir.

Bu istiqamətdə reallaşdırılan tədbirlər ilin ötən dövründə də davam etdirilib. Belə ki, bəhs olunan müddətdə Gənclər və İdman Nazirliyi idman federasiyaları ilə birlikdə 200-dən artıq yarış və turnir keçirib. Sevindirici haldır ki, Naxçıvanda idmanın inkişafına olan qayğı tək olimpiya-idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Bununla yanaşı, qadınların idmana cəlbi yönündə də mühüm işlər görülür. Gənclər və İdman Nazirliyinin nəzdində bədii gimnastika bölməsində 150-dən çox qız bu növlə məşğul olur. Digər federasiyalara da qızların cəlbi sevindirici haldır.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin səsləndirdiyi bu fikirlər artıq Naxçıvanda özünü doğruldub: ***“Biz Azərbaycan idmanının şərəfini ləyaqətlə qorumağa, ölkənin şan-şöhrətini yüksəltməyə söz vermişdik. Biz bunu etdik”.***

İdman sahəsində qazanılan nailiyyətlər həm də Naxçıvanın ümumi inkişaf səviyyəsinin, iqtisadi potensialının yüksək olduğunu bir daha nümayiş etdirir. Qazandığımız uğurlar muxtar respublikanın beynəlxalq yarışlara ev sahibliyi etməsi, Naxçıvanın idman siyasətinin təbliğçisi kimi imicinin möhkəmlənməsi ilə bir vəhdət təşkil edir, qədim diyarımızda idmanın kütləviliyindən xəbər verir. Bu isə sağlam həyat tərzi və sağlam mənəviyyatın formalaşdırılması deməkdir.

**Ceyhun MƏMMƏDOV**

# Qubadlının işğalından 25 il ötür



*Əzəmətli dağlara, sərin bulaqlara, gözəl meşələrə, gur çaylara, münbit torpağa malik olan Zəngəzur mahalının qədim yaşayış məskəni Qubadlı rayonu 25 il bundan əvvəl, 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Azərbaycanın bu dilbər guşəsinin işğala məruz qalması Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi, "dənizdən-dənizə böyük Ermənistan" yaradılması barədə xəyalpərəst daşnak ideoloqlarının çoxillik sərsəm ideyalarının tərkib hissəsi idi. Tarixən həm çar Rusiyasının, həm də sovet rejiminin çökməsi zamanı Dağlıq Qarabağ məsələsi dəfələrlə qaldırılıb, erməni işğalçıları Azərbaycan torpaqlarına, o cümlədən Qubadlıya hücum edib, kəndlər yandırılıb, talan edilib, dinc əhaliyə divan tutulub.*

### *Strateji əhəmiyyət daşıyan, daim düşmən hədəfində olan Qubadlı və sonadək aparılan mübarizə*

Proseslərin xronoloji ardıcıllığına nəzər salsaq, görərik ki, Qubadlı, əslində, erməni təcavüzü ilə Qarabağ münaqişəsindən bir qədər əvvəl üzləşmişdi. Sərhədlərin dəqiqləşdirilməsi adı ilə tarixən qubadlılıların dədə-baba torpaqları olan Vəli düzü, Güllü zəmi kimi gözəl təbiətli yerləri Ermənistana vermək cəhdi, əslində, münaqişənin örtülü olsa da, bünövrəsini qoymuşdu.

Qubadlı münaqişənin işartılarının göründüyü ilk günlərdən qaynar hadisələrin mərkəzində idi. 1988-ci il fevral ayının 6-da Xankəndidə ilk erməni mitinqlərindən sonra Ermənistandan azərbaycanlıların deportasiya edilməsinə başlandı və ilk qaçqın dalğası Qubadlıdan keçdi. Dədə-baba torpaqlarımız olan Sisyandan, Qafandan, Gorusdan zorla çıxarılan azərbaycanlıların bir qismini Qubadlı qəbul etdi.

Rayon Dağlıq Qarabağla Ermənistan arasında yerləşdiyinə görə strateji əhəmiyyət daşıyırdı. Bunu başa düşən erməni təcavüzkarları Qubadlıda terror-təxribat əməlləri törədirdilər. Onlar Dağlıq Qarabağa Qubadlı ərazisindən keçid yaratmaq, dəhliz açmaq, buradan separatçılara silah-sursat daşımaq niyyətini həyata keçirmək istəyirdilər.

1989-cu ilin sentyabr ayında sovet qoşunlarının zirehli texnikalarının müşayiəti ilə Gorus istiqamətində Yazı düzü yolu ilə 150-160 avtomobildən ibarət maşın karvanının Qubadlı ərazisinə yaxınlaşdığı xəbər verildi. Bir saat ərzində əhali ayağa qalxdı. Bütün yollar bağlandı. Əliyalın camaat maşın karvanının yolunu elə sərhəddəcə kəsdi. Avtomobil karvanı Xankəndi şəhərinə buraxılmadı. Təəssüf ki, geri qaytarılan avtomobil karvanı bir həftə Gorusun Xinzərək kəndində qaldıqdan sonra Laçın-Şuşa yolu ilə Xankəndiyə yol tapa bildi və karvanı müşayiət edən zirehli texnika Laçın şəhərində faciələr törətdi.

Bu yurd yeri Ermənistanla 120 kilometr məsafədə həmsərhəddir. Ermənilər sərhəddə yerləşən Əliquluuşağı, Məlikməhəmmədli, Seytas, Eyvazlı, Qədili, Dovudlu, Novlu, Yuxarı Cibikli, Əyin, Çardaxlı, Tarovlu, Fərcan, Göyyal, Saldaş, Çərəli kəndlərinə hücum edir, yaşayış məntəqələri atəşə tutulurdu. 1989-cu ilin axırlarında rayonda vəziyyət son dərəcə ağırlaşdı. Düşmənin hücumlarının, təxribat əməllərinin qarşısını alan özünümüdafiə dəstələri yerli milis qüvvələri ilə birlikdə hərəkət edir, düşmən hücumlarına mərdliklə müqavimət göstərirdilər. 1993-cü ilin yayında Əliquluuşağı kəndi istiqamətində bir gündə 3 düşmən vertolyotunun vurulması və sonradan onlardan birinin qənimət kimi Müdafiə Nazirliyinə verilməsi buna sübutdur. Lakin qüvvələr qeyri-bərabər idi. Təcavüzkar erməni dəstələri avtomat silahlardan, artilleriyadan, zirehli hərbi texnikadan gen-bol istifadə etdiyi halda, bizdə adi ov tüfəngləri belə, çatmırdı. Rayonun şərq tərəfdən geniş bir ərazisi müdafiəsiz qalmışdı. Həkəri çayı boyunca Zilanlı, Mahruzlu, Xanlıq kəndlərindən tutmuş Başarat zonasınadək yerli əhali ayağa qalxsa da, qüvvələr qeyri-bərabər idi. Zirehli texnikanın qarşısını 4-5 adama düşən bir avtomatla almaq mümkün deyildi.

Qubadlı 1993-cü il avqustun sonlarında artıq ermənilərin mühasirəsində idi. Cəbrayılın axırıncı kəndləri – Çullu, Maşanlı və Dağtumasın da düşmən əlinə keçməsi təhlükənin lap yaxınlaşdığını göstərirdi. Gah Qafan, gah Gorus, gah da Laçın istiqamətlərindən hücumlar olurdu. Qubadlılılar doğma torpaqlarını işğal etmək istəyən ermənilərə qarşı mərdliklə vuruşurdular. Lakin məğlub olmaq istəməyən sakinlər qeyri-bərabər döyüşdə rayonu tərk etmək məcburiyyətində qaldılar.

1993-cü il avqustun 30-da Gorusdan hücum edən Ermənistan qoşunları Yazı düzündə müqavimətlə qarşılaşsa da, Laçından maneəsiz keçib Muradxanlı kəndinə daxil oldular. Qoşun hissələri Həkəri çayı boyu bütün kəndləri atəşə tutdu və həmin gecə Xanlıq kəndinə qədər olan yaşayış məntəqələri ermənilərin əlinə keçdi. 1993-cü il avqustun 31-də hərtərəfli mühasirəyə düşmüş Qubadlı işğal olundu.

Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid oldu. Qarabağ müharibəsində isə Qubadlı, ümumilikdə, 238 şəhid verib, 146 nəfər əlil olub. Bu gün qubadlılılar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş həmyerliləri Əliyar Əliyev, Bəylər Ağayev, Aslan Atakişiyev, Səfa Axundov, Ələkbər Əliyev, Kazımağa Kərimov, Aqil Məmmədov, Kərəm Mirzəyev, Vasili Əliyevlə fəxr edirlər.

### *Azərbaycan Qubadlını itirməklə iqtisadi, mədəni, tarixi, ekoloji itkilərlə üz-üzə qaldı*

Rayonun işğalı nəticəsində 445 min kvadratmetr mənzil fondu, 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumtəhsil məktəbi, 10 mədəniyyət evi, 24 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 60 kitabxana dağıdılıb, işğalçılar 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırıb viran qoyublar.

Qubadlı tarixi abidələrlə zəngin yurd yerlərimizdən biridir. Belə ki, rayonun Aşağı Mollu və Həmzəli kəndlərinin hər birində 9, Əliquluuşağı kəndində 5, "Gavur dərəsi" deyilən ərazidə isə IV əsrə aid 1 qədim mağara, V əsrdə tikilmiş Göy qala, Muradxanlıda Qalalı qalası, Xocamsaxlı kəndindəki abidələr öz tarixi əhəmiyyətləri ilə seçilir. Bu gün onların hamısı düşmən tapdağı altında qalıb.

Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən, zəngin flora və faunaya malik, vaxtilə təbiət abidəsi kimi qorunan 20 min hektarlıq Qubadlı Dövlət Təbiət Yasaqlığı erməni işğalçıları tərəfindən dağıdılıb məhv edildi.

İşğaldan bir az sonra – 1993-cü il oktyabrın 14-də BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 874 saylı qətnamə ilə təcavüzkardan zəbt olunmuş torpaqların boşaldılması tələb olunsa da, Ermənistan buna məhəl qoymayıb və bu gün də rəsmi İrəvan beynəlxalq hüquq normalarını ayaqlar altına alır, işğalçılıq siyasətini davam etdirir.

### *Ötən hər gün bizi Qubadlının azad olunacağı günə daha da yaxınlaşdırır*

25 ildir ki, rayonun 30 mindən çox əhalisi ölkəmizin 47 şəhər və rayonunda məcburi köçkün həyatı yaşayır. Lakin onlar öz doğma yurd-yuvalarına qayıdacaqlarına ümidlərini itirməyiblər. Çünki ötən illər ərzində Azərbaycan xeyli inkişaf edərək öz iqtisadiyyatını, ordusunun gücünü daha da artırıb, Ermənistan isə bütün sahələrdə iflasa uğrayıb, ordusu çöküb.

Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət bu inamı daha da artırır. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, biz heç vaxt öz ərazi bütövlüyümüzün pozulması faktı ilə barışmayacağıq və istənilən yolla torpaqlarımızı işğaldan azad edəcəyik. İndi keçən hər gün bizi torpaqlarımızın azad olunacağı günə – Böyük Qələbəyə daha da yaxınlaşdırır. 2016-cı ilin aprel döyüşləri, bu il isə qazanılan Günnüt zəfəri bu qələbənin ayaq səsləri, müjdəçisidir...

**✍ Rauf KƏNGƏRLİ**

## Sahələrdə tütünün üçüncü qırımı başlayıb



Şərur rayonunun təbii iqlim şəraiti tütünçülüyün inkişaf etdirilməsi üçün olduqca əlverişlidir. Dövlət səviyyəsində bu sahəyə göstərilən diqqət və qayğı, tütünçülüyə ayrılan subsidiya, eləcə də güzəştli şərtlərlə lizinq yolu ilə texnikaların verilməsinin nəticəsidir ki, rayonda tütünçülüyə maraq xeyli artıb. Cari ildə rayonda 12 hektara yaxın ərazidə tütün əkilib. Hazırda sahələrdə tütünün üçüncü qırımı həyata keçirilir.

Qeyd edək ki, "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada da tütünçülüyün inkişafına stimul olub. Tütünçülük məhsullarının ixracına geniş şərait yaradılıb. Ötən ildən etibarən Türkiyə Respublikası Nazirlər Kabinetinin qərarına əsasən Naxçıvanda istehsal edilən məhsullar Türkiyə ərazisinə rüsumsuz ixrac olunur. Bu da tütünçülüklə məşğul olan naxçıvanlı sahibkarların yaxşı qazanc əldə etməsinə şərait yaradır.

**Xəbərlər şöbəsi**

## Universitet əməkdaşları növbəti təlimdə

*Bakı Biznes Universitetinin kordinator olduğu EQAC Erasmus Pulus layihəsinin növbəti təlim yığıncağı İsveçin Stokholm şəhərində təşkil edilib.*

Təlimlərin ilk günündə İsveçin KTH Kral Texnologiya Universitetinin vitse-prezidenti Stefan Ostlund Azərbaycan universitetlərindən olan heyəti qəbul edib və universitetin keyfiyyətin təminatı sahəsində gördüyü işlər barəsində məlumat verib. 6 gün davam edəcək təlimlərdə KTH Kral Texnologiya Universiteti partnyor universitetlərə beynəlxalqlaşma və keyfiyyətə təminat siyasəti ilə bağlı təlimlər keçərək tərəfdaş universitetlərlə təcrübələrini bölüşəcəkdir.

Məlumat üçün bildirək ki, "Naxçıvan" Universitetini təlimdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli və keyfiyyətə nəzarət bölməsinin mütəxəssisi Könül Babayeva təmsil edirlər.

**N.ƏSGƏROVA**

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında sağlamlıq imkanları məhdud uşaqlar arasında "Naxçıvan – tarixi abidələr diyarı" adlı rəsm müsabiqəsi keçirilib.*

## *"Naxçıvan – tarixi abidələr diyarı"* adlı rəsm müsabiqəsi keçirilib

Müsabiqədə bu qəbildən olan 10 uşaq iştirak edib. Sonda qaliblərə qiymətli hədiyyələr, digər iştirakçılara isə həvəsləndirici mükafatlar təqdim edilib.

Qeyd edək ki, tədbirin keçirilməsində məqsəd sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq potensiallarını artırmaq və sosial reabilitasiyalarına nail olmaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə (vəkilliyə) qəbul məqsədilə müsabiqə elan edilir

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən kollegiya üzvlüyünə (vəkilliyə), həmçinin rayonlarda yaradılacaq vəkillik qurumlarında vəkilliyə qəbulla əlaqədar müsabiqə elan olunur.

Müsabiqədə (ixtisas imtahanlarında) ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Vəkilliyə namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, vəkil vəzifəsinə yararlı və layiqliliyinin müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla, beynəlxalq tələblərə uyğun Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi Publik Hüquqi Şəxsin Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası ilə birlikdə testdən və şifahi müsahibə imtahanlarından ibarət ixtisas imtahanları keçiriləcək, ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında icbari təlimdə (30 gün) iştirak edəcəklər. Xarici dilləri, kompüter proqramlarını mükəmməl bilən namizədlərə üstünlük veriləcəkdir.

Müsabiqədə (ixtisas imtahanlarında) iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Rəyasət Heyəti tərəfindən müəyyən olunmuş formada ərizə*

*2. Kadrlar uçotunun şəxsi vərəqəsi*

*3. Tərcümeyi-hal*

*4. Ali təhsil haqqında diplomun surəti (diplomun əsli sənədlərlə birlikdə təqdim edilməlidir)*

*5. Əmək kitabçasının təsdiq edilmiş (notarial və yaxud kadrlar idarəsində) surəti*

*6. Şəxsiyyəti təsdiq edən sənədin (şəxsiyyət vəsiqəsi və yaxud forma № 9) surəti*

*7. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*8. Əqli cəhətdən sağlam olmaq barədə müvafiq dispanserdən arayış*

*9. 3x4 santimetr ölçüdə 4 ədəd fotoşəkil*

*10. Hərbi biletin surəti.*

Sənədlərin qəbulu 1 sentyabr 2018-ci il tarixdən hər iş günü saat 10⁰⁰-dan 17⁰⁰-dək Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi 5 ünvanında – Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti aparatının qəbul otağında aparılacaq.

***Əlaqə vasitələri:***
***telefon: (036) 545-58-06***
***Məsul şəxsin əlaqə nömrəsi:***
***050-485-04-35***
***e-poçt:***
***vekillerkollegiyasi@nakhchivan.az***

### *İtmişdir*

Babək rayonu, Kərimbəyli kənd sakini Əliyeva Zərniyar Novruz qızının adına verilmiş 248A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 614